## Ovçu Pirimin öz oğlunu öldürməsi

Bir gün Ovçu Pirim ova gedirmiş. Yolda görür ki, iki ilan bir- birinə sarılıblar. ilanların biri ağ, o birisi qaradı. Ağ ilan gözəl, qara ilan çirkiniymiş. Qara ilanı vurmax istiyir. Amma güllə ağ ilana dəyir, yaralanır. Qara ilan qaçır. İlannar Ovçu Pirimi ilannar padşahın yanma aparıllar. Yolda Ovçu Pirimə deyillər ki, padşah sənə deyəjəh mənnən nə istiyirsən, sən denə tüpür ağzıma. Ovçu Pirim əhvalatı olduğu kimi padşaha danışır. Padşah deyir ki, qara ilan mənim düşmənlərimdəndi. Mənim qızımı onun əlinnən aldığın üçün məndən nə istiyirsən? Ovçu Pirim deyir ki, tüpür ağzıma. Padşah ona deyir ki, saxlaya bilmərsən. Sora kişinin ağzına tüpürür. O vaxtdan Ovçu Pirim bütün canlılalın dilini bilir. Ovçu Pirim qayıdıb evinə gəlir. Günlərin bir günündə yaylağa köçürmüş. Madyan atmı yüklüyür. Atın balası da varıymış. Yükün üstünə arvadını mindirir. Yolda getdihləri yerdə görür kü, dayça kişnədi. Ovçu Pirim görür ki, dayça deyir: “Ay ana, yavaş get, yorulmuşam”. Anası cavap verir ki, ay sağ olasan, yük belimdə, bala qarnımda, biri yükün üstündə, biri də onun qujağında. Nejə olur ki, mən yorulmuram, sən yorulursan? Ovçu Pirim bu söhbətə gülür. Arvad bunu eşidir. Deyir ki, sən niyə güldün, burda heç kəs yoxdu axı. Kişi demir. Mübahisə düşür. Arvad deyir:

- Ə, əgər belədirsə, onda mən səndə oturmayajağam.

Yollarına davam eliyillər, görüllər yolun qırağında bir sürü qoyun otduyur. Ovçu Pirim görür ki, qoç bir şişəyi qovalıyır, gətirir arxın qırağına. Şişəh tullanır, qoç tullana bilmir. Baxır, baxır, deyir: - Ağzına qaya dəysin, sən qızıl kərə şişəh olmasın, o biri qumral kərə şişəh olsun.

Ovçu Pirimə bu söz çox pis təsir eliyir. Öz-özünə deyir ki, bu heyvan mənnən ağıllı tərpəndi. Mən əl çəkə bilmirəm, heyvan əl çəkə bilir. O günnən gedir arvadının kəbinini geri oxutdurur. Ar- vadınnan ayrılır. Arvad iki körpə uşağıynan qalır. Ovçu Pirim bö- yüh oğlunu özünnən götürür. Bu Allaha xoş gəlmir.

Ovçu Pirim bir gün ova gedir. Oğlunu da özüylə aparır. Bir dağ keçisi vurur. Hava çox dumanlı, yağışlı olur. Ojax qalıyıb bir az ət bişirib yeyillər. Sora deyir ki, oğul, sən burda gözdə, gedim, bəlkə ov düşdü. Ovçu Pirim gedən kimi uşağı yuxu tutur, durur keçinin

dərisininin içinə girir. Qayanın dibində yatır. Ovçu Pirim hərlənib qayıdanda görür ki, qayanın dibində bir heyvan yatır. Ona güllə atır, uşax ölür. Ovçu Pirim çox peşman olur. Öz-özünə bir söz qoşur: Kəhlik daşa dağıldı,

Səhdi daşa dağıldı,
Ovçu Pirim öz balasın vurdu,
Qanı daşa dağıldı.

O günnən Ovçu Pirim ovçuluğu atıp. Gəlir ayləsiynən barışır.

*Təhməzova Gözəl Behbud qızı, Cərbayıl rayonunun Xələfli kəndi, təvəllüdü 1921, təhsilsiz.*

*******

Avçı Pirim bir gün ava çıxmışmış. Kürkünü çıxarıf bir az irəli yeriyif. Yeriyəndə, gədəsi də dalınca hamar-hamar gedirmiş. Gedif görüf dədəsinin kürkü burdadı. Girif bının arasına. [Avçı Pirim] qanrılıf geri baxanda görüf ki, kürk tərpənir. Deyif:

– Yəqin bının arasına bir şey gəlif girif.

Tüfəngi çevirif. Çevirəndə gədə kürkü atıf əənə, çığırıf. Çığı-randa görüf ki, oğludu. Qayıdıf gəlif gədəni alıf qucağına. Əənə-bəənə, gədə canın tapşırıf. Gedif girif ayının mağarasına. Utanıf, əvə gətirə bilmiyif. Qalıf çöldə. Ayı gəlif qapını kəsəndə deyif:

Dağdağan ha, dağdağan,

Dağda bitər dağdağan.
Avçı Pirim öz balasın vırıf,
Göl-göl oluf dağda qan.

Ayıya yalvarıf ki, səni yaradanı səvərsən, mənə dəymə. Həylə ayını aralıyıf əənə. Səhər də oğlunun cəsədini götürüf gəlif.

*Təhməzova Gözəl Behbud qızı, Cərbayıl rayonunun Xələfli kəndi, təvəllüdü 1921, təhsilsiz.*

***

Ovçu Pirim ova gedir. Ov tapbır. Görür kü, bir qayanın kəməndində bir dənə pələng var. Bu pələngə atır, gülləynən vurur. Deyir, indi gedim bu pələngin dərisini soyum, gətirim. Gedif görür ki, pələngin dərisinin içindəki oğludu: pələngi vuruf, dərisinə bürünüf qış günü qayanın kahasında yatıf. Ovçu Pirim baxıf görüf ki, öz oğlunu vuruf. Bax, belə eşitmişəm.

*Əliyev Bayram Ağəli oğlu, Ağdam rayonunun Şelli kəndi, təvəllüdü 1922.*

***

Ovçu Pirimin əvvəlcə adı varıymış. Diri dağında yaşıyırmış. Bir gün Ovçu Pirimin oğlu maral dərisi geyir, çıxır dağa. Ovçu Pirim onu öldürür. Görür ki, oğludu, o vaxtdan adını dəyirşir.

*Məmmədov Əli Vəli oğlu, 1917, Cəbrayıl qəsəbəsi, ali savadlı.*

***

Rəvayətə görə, Pirim deyilən bir ovçu olubmuş. Bu ovçu Pirimin Kəlbi adında özündən kiçik bir qardaşı da varmış. Bu iki qardaş ovçuluqla gün keçirib dolanırmış. Onların bir tütəyi də varmış. Ova çıxanda tütək çala-çala kəyik, ceyran çağırarmışlar. Tütəyin səsinə gələn ceyranı, kəyiki ovlayıb geri qayıdarmışlar. Bu minvalla iki qardaş, bir də anaları Məhbub xanım dolanıb, güzəran keçirərmişlər.

Bir gün qışın soyuq vaxtı olur. Pirimlə Kəlbi axşam çörəklərini yeyib, bir az ixtilat da eləyib yatırlar ki, səhər tezdən ova çıxsınlar.

Səhər tezdən Məhbub xanım qorxmuş yuxudan oyanır. Yerindən qalxır, taxçadan bir qol çörək kəsib həyətdə zəncirlənmiş itə atır, sonra da deyir:

– Bu gecə gördüyüm yuxunun sadağası olsun, qada-balanı bizdən ötürsün.

Sən demə, Məhbub xanım yuxuda görübmüş ki, yol gedir. Gedə-gedə gəlib bir yerə çatır. Baxıb görür yolun üstə bir yığnaq var. Tez gəlib həmən yığnağa yanaşır. Görür ki, bir qoca hönkür-hönkür ağlayır.

Xəbər alır:

– Ay qardaş, bu adamlar bura niyə yığışıb? Sən özün niyə ağlayırsan?

Qoca deyir:

– Ay bacı, yolun üstündə bir cavan oğlan uzanıb, can- cəsəddən olub, nəfəsi gəlmir, bir dişi də çıxıb ağzından sallanır.

Məhbub xanım tez adamları aralayıb qabağa keçir. Baxıb görür ki, yolda yıxılıb qalan öz oğlu Pirimdi. Başlayır haray salmağa. Necə haray qoparıb vay-şivən salırsa, öz səsinə yuxudan dik atılır. Arvad birtəhər özünü toxtatmaq istəyir ki, bir də baxıb görür ki, Pirim yatağından qalxıb, çarığının dolağını bərkidir. Məhbub xanım dalağı sancmış kimi oğlundan soruşdu:

– Oğlum, Pirim, hara belə?

– Ova gedirəm, – deyə Pirim cavab verdi.

Anası deyir:

– Oğul, gəl getmə! Bu gün hava heç ov havası da deyil. Allah qoysa, sabah gedərsən. Özü də Allah axırını xeyir eləsin, bu gecə yuxumu qarışdırmışam, qoy qalsın sonraya.

Pirim dediyindən dönmür:

– Yox, anacan, ürəyimə düşüb, qoy gedim. Çox əngəl olmaram, tez qayıdaram, bir-iki quşdan, ətlikdən vurub gələrəm.

Anası çox deyir, Pirim az eşidir. Pirim çarığını geyinir, tüfəngini çiynınə alıb, tütəyini də götürüb, Kəlbidən xəbərsiz evdən çıxır. Anası Məhbub xanım görəndə ki, oğlu getdi, görək nə deyir:

Səhər tezdən geyindin sən çarığını,
Ana dedi: – almaginən yarağını.
Mənə yuxuda əyan edib sorağını
Gəl getmə, can oğlum, aman günüdü.

Bu yuxu bənzəməz başqa yuxuya,
Canımı salıb sağalmaz qorxuya.
Gəl evdə yer atım, sən get yuxuya
Gəl getmə, can oğlum, aman günüdü.

Pirimin anası Məhbub xanım çox yalvardı, o eşitmədi. Şeytan qəlbinə giribmiş. Olmalı iş olsun gərək, deyiblər. Pirim əlindəki çalan aləti saz əvəzinə sinəsinə basıb anası Məhbub xanıma görək nə dedi:

Ovçu Pirim neçə ildi ovlayıb
Kəyiki, ceyranı meşələrdə qovlayıb.
Mən gedirəm Kəlbi evdə yuxlayıb
Burax anam, gedim, aman günüdü.

Qərəz Pirim ova getdi. Meşəyə çatıb özünə bir yer tutdu. Pirim meşədə qalsın, sizə kimdən xəbər verim – Ovçu Pirimin qardaşı Kəlbidən. Kəlbi yuxudan oyanıb görür ki, qardaşı Pirim ondan xəbərsiz ova gedib. Kəlbi də tüfəngini, qalan alətini alıb, ova getdi. Amma bilmir ki, qardaşını harda axtarsın. İş elə gətirdi ki, o da qardaşının səmtini tutub getdi. Gəlib meşəyə çatdı. Kəlbi də meşədə özünə bir yer tutub, tütəyini çalmağa başladı. O biri tərəfdən Pirim də gördü ki, budu, ceyran gəlir. O da başladı tütəyini çalmağa. Hər ikisi bir-birindən xəbərsiz ceyranı başladılar izləməyə. Çala-çala bir-birinə tərəf gəlməyə başladılar. Ətraf yaman dumanlıq idi. Qardaşlar bir-birini görmürdülər. Pirim baxdı ki, ceyran tüfəng mənzilindədi. Pirim tüfənginin çaxmağını çəkdi, tüfəng işlədi. Pirim baxıb gördü ki, gülləsi boşa çıxmadı, hədəfə dəydi. Nəsə yerə yıxıldı. Qaçdı ki, baxıb görsün nə vurub. Gəlib çatanda gördü ki, qardaşı al-qan içindədir. Bu halı görübən ovçu Pirim huşdan gedib yıxıldı. Bir qədər sonra özünə gəlib qardaşına sarındı. Qardaşının qanını duz kimi yalamağa başladı. Pirim qardaşı Kəlbini bu halda görüb görək nə dedi:

Yatmış idim, aşkar gördüm yuxumu
Mən yuxuma peşman olub ağlaram.
Anam dedi: –gəl sən qayıt bu yoldan,
Yollar mənə viran oldu, ağlaram.

Çaxginən çaxmağı, od düşsün qova,
Çalxaşıb buludlar, tutuldu hava.
Dağılsın bu gün ki mən çıxdım ova
Kəyik bilib xan Kəlbini öldürdüm.

Yaraq səni zərgərlərə döydürdüm,
Əziz tutub zər-zibaya qoydurdum,
Bu günləri öz gözümü oydurdum,
Kəyik bilib Xan Kəlbini öldürdüm.

Sındırdım qəlbimi, bükdüm belimi,
Lal etdin dilimi, kor da gözümü,
Yalqız indi miskin görrəm özümü
Kəyik bilib Xan Kəlbini öldürdüm.

Düşmən oldun, yaraq, indi mənə sən,
Pas atıb çaxmağın, küncdə qalasan,
Sağalmaz yaranı canıma salansan,
Kəyik bilib Xan Kəlbini öldürdüm.

Ovçu Pirim görəndə ki, qardaşı Kəlbi ona hay vermir, dünya başına dar oldu. Bildi ki, qardaşı ölübdü. Yenə özünü saxlaya bilməyib dedi:

Qışqırdım "qardaş!", yox haydan-vaydan,
Üzüldü cahanda əlim qardaş payından,
Sarındım, yaladım qardaş qanından,
Kəyik bilib Xan Kəlbini öldürdüm.

Hava buludluydu, görə bilmədim,
Qardaş payından üzüldü əlim,
Qaraldı öz dünyam, kəsildi dilim,
Kəyik bilib Xan Kəlbini öldürdüm.

Ovçu Pirim ağlaya-ağlaya qardaşı Kəlbini qolları üstünə alıb evə gətirdi. Məhbub xanım Kəlbinin öldüyünü bilib oğlu Pirimə görək nə dedi:

Mən sənə yalvardım, çıxma sən çölə,
Yandırdın bağrımı, döndərdin külə,
Qardaşın əlindən qardaş da ölə,
Mən sənə yalvardım, aman günüdü.

Ovçu Pirim anasından bu sözləri eşidən kimi ürəyi qubarlandı. Tüfəngini çiynindən aşırıb anası Məhbub xanıma verib dedi:

– Anacan, qanım sənə halaldır. Al, vur məni! Qardaşımdan dala məni tək qoyma!

Ovçu Pirimin ürəyi tab gətirə bilmədi. Görək anası Məhbub xanıma nə dedi:

Qoy mənim canıma elim tüfürsün,
Ana, vuran əlim dibinnən sınsın,
Çıxsın gözlərim, qıçım qırılsın,
Al, vur məni, ana, aman günüdü.

Bunu deyibən ovçu Pirim tüfəngini alıb tövbə etdi. Dedi:

– Yaraq, sən mənə düşmənsən. Səni bir də ələ alası deyiləm.

Belə söyləyirlər ki, ovçu Pirim o gündən ovçuluqdan əl çəkdi, qardaşı Kəlbinin qarasını saxladı. Gedib bir cüt camış alıb rəncbərlik eləməyə başladı.

*Qocayev Niftulla Qoca oğlu, Dağıstan Respublikasının Rubas kəndi, 75 yaşında*